# OYNA

## *("QARABAĞ"ımızın qələbəsinə)*

Aç qollarını göylərə, meydanə gir, oyna!
Qol vur, o rəqibin sənə biganədir, oyna!

Hər bir top ona sillədi, vur-vur ki, ayılsın,
Dursun və bayılsın yenə, məstanədir, oyna!

Dik tut başını, düşmənə heç vaxt o, əyilməz,
Alqış desin aləm sənə, şahanədir, oyna!

Yazdın "Qarabağ" tarixinə bir yeni tarix,
Düşmən deyəcək, yox, bu da əfsanədir, oyna!

Meydanə çağır, varmı rəqibin səni görsün,
Hər bir oyunun görsün o, mərdanədir, oyna!

Azarə düşüb, özgə azarkeş dəli olmuş,
Neynək, desə divanə də, divanədir, oyna!

Qurban bəyə sağlıq diləyək, qalx, Ələmi, gəl,
Söz de, bu qəzəl də elə peymanədir, oyna!

**07.10.2022**

# OLAYDIM

Məcnun söyüdün saçlarına bənzədi saçlar,
O saçların altında qalan kölgən olaydım.

Oğrun baxışıb, vəcdə gəlib tir-tir əsəydik,
Ruhən ucalaydım göyə, ruhən şən olaydım.

Göylərdə bizim ruhumuz hərdən qoşalaşsın,
Dönsün geri məstanə, çaşıb mən sən olaydım.

Hər yerdə mələklər oxuyaydı bizi görcək,
Titrək o dodağında sənin nəğmən olaydım.

Səndən səni mən çox sevirəm, söyləmə tez-tez,
Bu eşqdə, sən söylə, səninlə tən olaydım.

Qurban olaram, başına dönnəm, deyə qaçma,
Sakitcə baxaydın, əbədi çevrən olaydım.

Döndərmə, üzün tək mənə baxsın, mənə yalnız,
Əhv eylə, düşündüm, əbədi qiblən olaydım.

Laylayla qəzəllər oxuyurdum Ələmidən,
Şair, qucağında, dedi, kaş hərdən olaydım!



**10.10. 2022**

---

**Əli ƏLƏMİ**

Azad Azərbaycan.- 2022- ci il.- 12 noyabr.- S. 8.